

# Azərbaycan-Pakistan münasibətləri:

## Strateji əməkdaşlığın əsasları və yeni perspektivlər

**Azərbaycan və Pakistan münasibətləri uzun illərə söykənən dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. İki ölkə arasında əlaqələr diplomatik münasibətlərlə, həmçinin ortaq dini və mədəni köklərlə daha da möhkəmlənib. Pakistan beynəlxalq arenada ölkəmizi daim dəstəkləyib.**

Azərbaycan Respublikasının müstəqilliyini ilk tanıyan dövlətlərdən biri Pakistan İslam Respublikası olmuşdur. 12 dekabr 1991-ci ildə Pakistan Azərbaycanın müstəqilliyini rəsmən tanımış və bununla iki ölkə arasında dostluq münasibətlərinin əsası qoyulmuşdur. 9 iyun 1992-ci ildə Azərbaycan ilə Pakistan arasında diplomatik əlaqələr qurulmuş, 12 mart 1993-cü ildə Pakistan Bakıda öz səfirliyini açmışdır. Azərbaycan isə 24 avqust 1997-ci ildə İslamabadda səfirlik təsis edərək qarşılıqlı diplomatik münasibətləri daha da möhkəmləndirmişdir.

**(davamı 8-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Səfirliklərin fəaliyyətə başlaması ölkə arasında siyasi, iqtisadi, hərbi, mədəni və humanitar sahələrdə əməkdaşlığın inkişafına mühüm töhfə vermişdir. Qarşılıqlı hörmət və etimada söykənən münasibətlər 1994-cü ildə ümummilli lider Heydər Əliyevin Kasablankada Pakistanın ovaxtkı Baş naziri Benazir Bhutto ilə görüşündən sonra yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir il sonra oktyabrda isə Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Bakıya rəsmi səfər etmişdir.

Pakistan Azərbaycanın suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləmişdir. Xüsusilə Ermənistanın təcavüzkar siyasətinə qarşı sərgilədiyi mövqe rəsmi İslamabadın Azərbaycana olan sadiqliyinin bariz nümunəsidir. Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini daim pisləmiş, keçmiş Qarabağ münaqişəsi dövründə ölkəmizin haqlı mövqeyini müdafiə etmişdir. Rəsmi İslamabad Ermənistanı işğalçı dövlət kimi tanımış və bu ölkə ilə diplomatik əlaqələr qurmaqdan imtina etmişdir. Bununla yanaşı, İkinci Qarabağ müharibəsi dövründə Pakistanın dövlət və hökumət nümayəndələri Azərbaycanla həmrəy olduqlarını bəyan etmiş, müxtəlif beynəlxalq platformalarda ölkəmizi dəstəkləyən çıxışlar etmişlər. Pakistan eyni zamanda Xocalı soyqırımını tanıyan ölkələrdən biridir. Belə ki, 2012-ci ildə Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı Soyqırımını tanıyaraq faciəni insanlığa qarşı cinayət kimi qiymətləndirmişdir. 2017-ci ildə də Pakistan Milli Assambleyasının Xarici İşlər Komitəsi oxşar qərar qəbul edərək Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləmiş və işğalçı dövlətə qarşı beynəlxalq təzyiqlərin artırılmasını tələb etmişdir. Bu addımlar Pakistanın Azərbaycanın haqq işinə verdiyi dəstəyin mühüm göstəricilərindəndir.

Azərbaycan-Pakistan münasibətləri təkcə siyasi və diplomatik müstəvidə deyil, iqtisadi, hərbi və mədəni sahələrdə də inkişaf etməkdədir. Hər iki ölkə ticarət dövriyyəsini artırmaq, müdafiə sənayesi sahəsində əməkdaşlığı gücləndirmək və enerji sektorunda tərəfdaşlıq imkanlarını genişləndirmək niyyətindədir. Pakistan müdafiə sənayesi sahəsində ciddi nailiyyətlər əldə edib və bu sahədə Azərbaycanın yaxın tərəfdaşlarından biridir. Azərbaycanın Pakistan istehsalı olan JF-17C çoxməqsədli döyüş təyyarələrini əldə etməsi də bu əməkdaşlığın praktik nəticələrindən biridir. Belə ki, bu təyyarələr ötən il sentyabrın 25-də Prezident İlham Əliyevə təqdim edilib. Pakistanın müdafiə sənayesində təcrübəsi Azərbaycana bu sahədə texniki imkanlarını genişləndirməyə geniş perspektivlər açır. Azərbaycan və Pakistan orduları arasında mütəmadi olaraq keçirilən birgə hərbi təlimlər və təcrübə mübadiləsi də diqqətçəkən məqamlardandır. Bu təlimlər hər iki ölkənin hərbi heyətinin döyüş hazırlığını gücləndirməyə, real döyüş şəraitində koordinasiyanı artırmağa və qarşılıqlı manevr imkanlarını təkmilləşdirməyə xidmət edir. Azərbaycan və Pakistan arasında hərbi əməkdaşlıq iki ölkənin müdafiə qabiliyyətini artırır, eyni zamanda regional sabitliyə töhfə verir.






İki ölkə arasında siyasi münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Hər iki ölkə beynəlxalq təşkilatlarda, xüsusilə İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı və D-8 çərçivəsində bir-birini dəstəkləyir. Azərbaycan Prezidenti İlham Əliyev ilə Pakistanın dövlət başçıları arasında keçirilən rəsmi görüşlər, imzalanan sənədlər əlaqələrin strateji mahiyyətini daha da gücləndirir. Azərbaycan və Pakistan liderlərinin mütəmadi görüşləri ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu göstərir. Belə ki, 2017-ci ildə Prezident İlham Əliyevin Pakistana səfəri çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü Zirvə Toplantısında iştirak etməsi iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verib. 2019-cu ildə Pakistan Prezidenti Arif Alvinin Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycana səfəri siyasi əlaqələrin gücləndirilməsinə şərait yaradıb. 2023-cü ildə Pakistanın baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana rəsmi səfəri isə ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərdi. Səfər zamanı iqtisadi, ticarət və enerji əməkdaşlığı məsələləri müzakirə olunub və iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi ilə bağlı razılıq əldə edilib. Ölkə başçımızın ötən il iyulun 11-12-də Pakistana dövlət səfəri strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm kəsb edir. Səfər zamanı ikitərəfli görüşlər keçirilib. Əməkdaşlığın müxtəlif sahələrini əhatə edən 15 sənədin mübadiləsi Azərbaycan və Pakistan arasında müqavilə-hüquq bazasını daha da genişləndirib. COP29 çərçivəsində də Prezident İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif arasında keçirilən görüşdə əlaqələrin inkişafı və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi müzakirə edilib.

Ötən gün ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında təkbətək görüş olub. Daha sonra Azərbaycan və Pakistan arasında müxtəlif sahələri əhatə edən mühüm sənədlərin imzalanması və mübadilə mərasimi keçirilib. İmzalanan razılaşmalar siyasi, iqtisadi, enerji, müdafiə sənayesi, logistika və humanitar sahələrdə əməkdaşlığın inkişafına töhfə verməklə yanaşı, gələcək strateji layihələrin həyata keçirilməsinə də zəmin yaradır. Bu sənədlər iki ölkənin ticarət dövriyyəsini artırmaq, sərmayə imkanlarını genişləndirmək və birgə infrastruktur layihələrini reallaşdırmaq məqsədi daşıyır. Baş nazir Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfəri, keçirilən görüşlər və imzalanan yeni razılaşmalar iki ölkə arasında əlaqələrin daha da inkişaf edəcəyindən xəbər verir. Bu əməkdaşlıq yalnız Azərbaycan və Pakistan deyil, bütövlükdə regionun sabitliyi və inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

Azərbaycan-Pakistan münasibətləri qarşılıqlı etimad və strateji tərəfdaşlıq prinsiplərinə əsaslanır. Son illər həyata keçirilən yüksək səviyyəli səfərlər və diplomatik görüşlər əlaqələrin möhkəmləndirilməsinə xidmət edib. İki qardaş ölkə siyasi, iqtisadi və hərbi sahələrdə əməkdaşlığı daha da genişləndirməklə, regional və beynəlxalq arenada bir-birinə dəstək verir. Son illərdə iki ölkə ticarət və investisiya sahəsində əlaqələri genişləndirmək üçün mühüm addımlar atıb. Kənd təsərrüfatı, enerji, əczaçılıq, tikinti, nəqliyyat və informasiya texnologiyaları sahəsində tərəfdaşlıq imkanları genişlənir. Qarşılıqlı iqtisadi maraqlar və strateji mövqe əməkdaşlığın inkişafına böyük töhfə verə bilər. Həmçinin Azərbaycanın zəngin neft və qaz ehtiyatları Pakistan üçün mühüm əhəmiyyət kəsb edir. Xüsusilə maye qaz (LNG) tədarükü və neft məhsullarının idxalı sahəsində əməkdaşlıq genişlənir. Pakistan isə enerji sektorunda Azərbaycanın təcrübəsindən yararlanaraq enerji infrastrukturunun inkişafına töhfə verə bilər.

Azərbaycan və Pakistan arasında münasibətlər siyasi və iqtisadi sahələrlə yanaşı, humanitar istiqamətdə də dərin köklərə malikdir. Hər iki ölkə bir-birinə humanitar dəstək göstərməklə qardaşlıq bağlarını daha da möhkəmləndirir. Bu çərçivədə Azərbaycan hökuməti və Heydər Əliyev Fondu Pakistanda bir sıra mühüm sosial layihələr həyata keçirib, təhsil, səhiyyə və infrastruktur sahələrində ciddi yardımlar edib. 2010 və 2011-ci illərdə Pakistanın müxtəlif bölgələrində baş vermiş genişmiqyaslı sel fəlakətlərinin nəticələrinin aradan qaldırılması üçün Azərbaycan hökuməti Pakistana ümumilikdə 3 milyon ABŞ dolları həcmində yardım edib. Bundan əlavə, 2008-ci ildə Azərbaycanın maliyyə dəstəyi ilə Pakistanda zəlzələdən zərər çəkmiş qızlar üçün məktəb tikilib və 2012-ci ildə bu təhsil ocağı əsaslı təmir olunub. Heydər Əliyev Fondu da Pakistanda müxtəlif sosial layihələr reallaşdırıb. Xəstəxanaların inşasına dəstək verilib, pulsuz tibbi müayinələr təşkil edilib, əlilliyi olan şəxslərə əlil arabaları təqdim olunub. 2012-2018-ci illərdə Fond Pakistandakı tibb müəssisələrinə qanköçürmə və laboratoriya avadanlıqları, təcili tibbi yardım maşını və tibbi ləvazimatlar bağışlayıb. Bundan əlavə, Dera İsmayıl Xan bölgəsində Heydər Əliyev Su Təchizatı Sistemi qurulub.

Təhsil sahəsində əməkdaşlıq çərçivəsində 2019-cu ildə Heydər Əliyev Fondu Müzəffərabad şəhərində qızlar məktəbinə hədiyyələr göndərib, Pakistan Milli Kitabxanasında Azərbaycanşünaslıq Mərkəzi açılıb. 2023-cü ildə Pakistanın Milli Elm və Texnologiya Universitetində Heydər Əliyev adına auditoriya fəaliyyətə başlayıb. Bununla yanaşı, 2021-ci ildə Peşəvərdə prospektə Nizami Gəncəvinin adı verilib, Azərbaycan Dillər Universitetində Pakistan Mədəniyyət Mərkəzi açılıb.

Pakistanda həyata keçirilən humanitar təşəbbüslər yüksək qiymətləndirilib. 2013-cü ildə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Pakistanın nüfuzlu "Könüllü qadınlar" təşkilatı və "Daily Times" qəzeti tərəfindən "Humanizmin Simvolu - 2012-ci ilin Qadını" mükafatına layiq görülüb. 2015-ci ildə isə Pakistan Prezidenti Məmnun Hüseyn ölkəmizin birinci xanımına ölkənin ən yüksək dövlət təltiflərindən biri olan "Hilal-e Pakistan" ordenini təqdim edib.

Azərbaycan və Pakistan arasında humanitar əməkdaşlıq təkcə yardımlaşma deyil, eyni zamanda iki xalq arasında dostluq və mədəni əlaqələrin gücləndirilməsinə xidmət edir. Bu istiqamətdə həyata keçirilən layihələr qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə şərait yaradır.

Azərbaycan və Pakistan xalqları arasında mədəni əlaqələr yüksək səviyyədədir. Pakistanın müxtəlif şəhərlərində Azərbaycan tarixinə və mədəniyyətinə həsr olunmuş tədbirlər keçirilir, universitetlərdə Azərbaycan dili və mədəniyyəti üzrə tədqiqatlar aparılır. İki ölkənin gəncləri arasında təhsil sahəsində əməkdaşlıq genişlənməkdədir. Pakistan tələbələri Azərbaycan universitetlərində təhsil alır və eyni zamanda azərbaycanlı tələbələr Pakistanın ali təhsil ocaqlarında akademik biliklərini artırırlar. Hər iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq daha da dərinləşmək potensialına malikdir.

Bütün bu amillər Azərbaycan-Pakistan münasibətlərinin gələcəkdə daha da dərinləşəcəyini göstərir. İki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı, regional və qlobal məsələlərdə mövqelərinin uzlaşması bu əlaqələrin strateji səviyyədə inkişafına zəmin yaradır. Qarşıdakı illərdə Bakı və İslamabad arasında daha sıx əməkdaşlıq formatlarının yaradılması, ortaq investisiya layihələrinin reallaşdırılması və müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində ciddi addımların atılacağı gözlənilir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**